

# Azərbaycan Bəstəkarlar İttifaqı

**Üzeyir Hacıbəyli İttifaqın yaradılmasında müstəsna rol oynamışdır.**

Azərbaycan bəstəkarları və musiqişünaslarının 1934-cü ildə yaradılmış ictimai yaradıcılıq təşkilatıdır. İdarə heyəti və katibliyi vardır. İttifaqın məqsədi xalqın mənəvi zənginləşməsinə xidmət göstərmək, musiqi mədəniyyətini inkişaf etdirmək, musiqi irsini toplayıb tədqiq etmək, Azərbaycan bəstəkarlarının əsərlərini Respublikada və onun hüdudlarından kənarda təbliğ etmək, musiqişünaslığın inkişafına yardım göstərməkdir. Üzeyir Hacıbəyli İttifaqın yaradılmasında müstəsna rol oynamışdır.

Üzeyir Hacıbəyli 1937-ci il fevralın 15-dən ömrünün sonunadək Bəstəkarlar İttifaqının əvəzsiz sədri olmuşdur. (Üzeyir .Hacıbəyli ensiklopediyası. Bakı: Şərq-Qərb,2008, Səh.19).

Sonrakı illərdə Səid Rüstəmov, Qara Rüstəmov, Tofiq Quliyev Bəstəkarlar İttifaqının sədri vəzifəsində çalışıblar. Unudulmaz bəstəkarlarımız Vasif Adıgözəlov, Aqşin Əlizadə, musiqişünas Ramiz Zöhrabov da Bəstəkarlar İttifaqının fəaliyyətində mühüm xidmətlər göstəriblər. Bir müddət Xalq artisti Sırdar Fərəcov və bəstəkar Aliyə Məmmədova da İttifaqda fəaliyyət göstəriblər. Hal-hazırda Xalq artisti, YUNESKO-nun "Sülh" artisti, AMEA-nın müxbir üzvü Firəngiz Əlizadə Bəstəkarlar İttifaqının (2007-ci ildən) sədri, Əməkdar incəsənət xadimləri, bəstəkar Cəlal Abbasov və musiqişünas professor Zemfira Qafarova isə katib vəzifəsində çalışırlar.